**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**İQTİSADİYYAT İNSTİTUTU**

Əlyazması hüququnda

**NƏSİROV ƏHMƏD YUSİF oğlu**

# Aqrar-sənaye kompleksinin dayanıqlı inkişafının təmin edilməsində beynəlxalq nəqliyyat dəhlizlərinin rolunun artırılması

**İxtisas: 5312.01** – Sahə iqtisadiyyatı

**İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI – 2017**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunda yerinə yetirilmişdir

**Elmi rəhbər**: **iqtisad üzrə elmlər doktoru, prof. İ.H.Alıyev**

**Rəsmi opponentlər:** iqtisad üzrə elmlər doktoru, professor
**Füzuli Əziz oğlu Məmmədov**

iqtisad üzrə fəlsəfə doktoru, dosent
**İsgəndərov Faiq Bayraməli oğlu**

**Aparıcı təşkilat:** Azərbaycan Dövlət Aqrar Universitetinin "Aqrar siyasət və dünya iqtisadiyyatı" kafedrası

Dissertasiya işinin müdafiəsi "10" iyul 2017-ci il saat 14-da Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi Kənd Təsərrüfatının İqtisadiyyatı Elmi-Tədqiqat İnstitutunda fəaliyyət göstərən FD.04.014 Dissertasiya Şurasının iclasında olacaqdır.

**Ünvan**: Bakı şəhəri, N.Nərimanov rayonu, Az.29, 8-ci Köndələn, III mərtəbə, akt zalı

Dissertasiya işi ilə Kənd Təsərrüfatının İqtisadiyyatı Elmi-Tədqiqat İnstitutunun kitabxanasında tanış olmaq olar.

Avtoreferat "09" iyun 2017-ci ildə göndərilmişdir

FD.04.014 Dissertasiya Şurasının elmi katibi,
**iqtisad üzrə fəlsəfə doktoru** V.R.Rzayev

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı:** Aqrar-sənaye kompleksi milli iqtisadiyyatın həyati əhəmiyyətə malik vacib tərkib hissəsi kimi kənd təsərrüfatına xidmət edən sahələri, kənd təsərrüfatının özünü, kənd təsərrüfatı məhsullarının istehlakçılara çatdırılması ilə məşğul olan sahələri birləşdirərək, ümumilikdə ölkənin tərəqqisində, iqtisadi və ərzaq təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayır. Ölkənin iqtisadi təhlükəsizliyinin tərkib hissəsi kimi ərzaq təhlükəsizliyinin təmin olunması aqrar sektorun və onun tərkibinə daxil olan ayrı-ayrı sahələrin inkişafından birbaşa asılıdır. Ona görə də aqrar sektorun və aqrar-sənaye kompleksinin inkişafı Azərbaycanın müstəqilliyi şəraitində son dərəcə vacib əhəmiyyət kəsb edir. Bazar münasibətlərinə keçiddən sonra aqrar-sənaye kompleksinə daxil olan sahələrdə fəaliyyət göstərən müəssisələr bazarın tələbləri əsasında məhsul istehsal etməyə çalışırlar. Nəticədə, bazar mexanizmi əsasında inkişaf edən aqrar-sənaye müəssisələrində şəxsi təşəbbüskarlığın genişlənməsi ilə yanaşı, problemlər də meydana çıxır. Bu problemlər aqrar-sənaye müəssisələrinin istehsal-satış fəaliyyətlərində özünü daha qabarıq şəkildə göstərir. Son nəticədə, bütövlükdə aqrar sektorun inkişafını ləngidir və onun daha yüksək templə inkişaf etməsi baxımından problemlər doğurur. Sözügedən problemlərin aşkarlanması və onların həlli üzrə həm konseptual, həm də təcrübi baxımdan əsaslandırılmış təkliflər işlənib hazırlanması müvafiq tədqiqatların aparılmasını tələb edir. Tədqiqat işində kənd təsərrüfatının milli iqtisadiyyatda yeri və rolu göstərilmiş, aqrar məhsulların satışının əsas istiqamətlərindən olan aqrar-sənaye müəssisələrinin inkişafı məsələləri təhlil olunmuş, bu sahədə istehsal-satış münasibətlərinin səmərəliləşdirilməsi istiqamətləri tədqiq edilmiş, bütövlükdə aqrar-sənaye kompleksinin inkişaf perspektivlərinin müəyyənləşdirilməsinə, bu perspektivlərin reallaşdırılmasında beynəlxalq nəqliyyat dəhlizlərinin rolunun artırılmasına cəhd edilmişdir. Bu baxımdan da, tədqiqat işi xüsusi əhəmiyyət kəsb edir.

Digər tərəfdən, müasir dövrdə dayanıqlı inkişaf bütün dünyanın gündəmində olan bir məsələ kimi, hər bir dövlətin başlıca məqsədinə çevrilmişdir. Aydındır ki, dayanıqlı və ya davamlı inkişafın əsasını təbii-iqtisadi resurslardan tam və səmərəli istifadə, istehsal-satış fəaliyyətinin fasiləsizliyi təşkil edir. Nəzərə alsaq ki, aqrar sektor təbii amillərlə sıx

bağlıdır və ölkədə ərzaq təhlükəsizliyinin təmin edilməsinin başlıca mənbəyidir, onda bu sektor üzrə müvafiq araşdırmalar aparılmasının zəruriliyi aydın olar. Belə ki, kənd təsərrüfatı təyinatlı resurslardan səmərəli istifadəyə nail olunması ilə, aqrar-sənaye sahələrini inkişaf etdirməklə kənd təsərrüfatı ilə sənaye arasında etibarlı bağlantının yaradılması və beləliklə də, normal ərzaq təminatının formalaşdırılması günümüzün aktual problemlərindən biri kimi qəbul edilir. Aqrar-sənaye kompleksinin dayanıqlı inkişaf etdirilməsi, həm də kənd təsərrüfatı məhsullarından səmərəli istifadəyə, bu sahədə itkilərin azaldılmasına komək edir ki, bu da aqrar sahibkarlığın inkişafı üçün çox vacibdir. Bütün bunlar, aqrar sektorun inkişafı, aqrar məhsulların səmərəli satışı, kənd təsərrüfatına nəqliyyat xidmətlərinin optimallaşdırılması, bu sahədə iqtisadi münasibətlərin daha da təkmilləşdirilməsi istiqamətində elmi cəhətdən əsaslandırılmış təklif və tövsiyələrin işlənib hazırlanmasının aktual olduğunu göstərir.

Azərbaycan Respublikasının əksər regionlarının Şərq-Qərb (İpək Yolu) və Şimal-Cənub nəqliyyat dəhlizləri ilə əhatə olunduğunu, nəqliyyatın başlıca vəzifəsinin cəmiyyətin daşımalara olan tələbatının minimum məsrəflərlə, ən qısa zamanda və təhlükəsiz ödənilməsi olduğunu nəzərə alsaq, onda kənd təsərrüfatı məhsullarının istehlakçılara və müvafiq sənaye müəssisələrinə çatdırılmasında nəqliyyatın rolu aydın olar. Eyni zamanda, nəqliyyat dəhlizləri tranzit və beynəlxalq daşımalar üçün də əlverişli imkan yaradır ki, bu da aqrar sektorun inkişafında nəqliyyat sektorunun əhəmiyyətini daha da artırır. Təbii ki, belə bir şəraitdə, ən vacib məsələlərdən biri də iqtisadiyyatın ayrı-ayrı sahələrində, o cümlədən regional inkişafın və ərzaq təhlükəsizliyinin əsasını təşkil edən aqrar-sənaye kompleksində nəqliyyat dəhlizlərinin yaratdığı imkanlardan maksimum səmərəliliklə istifadənin təmin edilməsidir. Bütün bunlar aqrar sektorun dayanıqlı inkişafının təmin edilməsi, bu sahədə beynəlxalq nəqliyyat dəhlizlərinin yaratdığı imkanlardan səmərəli istifadə olunması və aqrar-sənaye kompleksinin inkişafında bu dəhlizlərin rolunun artırılması istiqamətində araşdırmalar aparılmasının, elmi cəhətdən əsaslandırılmış təklif və tövsiyələrin işlənib hazırlanmasının zəruri olduğunu sübut edir. Bu baxımdan da, seçilmiş tədqiqat mövzusu olduqca mühüm problemləri əhatə edir və xüsusi aktuallığa malikdir.

**<u>Problemin öyrənilmə səviyyəsi:</u>** Aqrar-sənaye kompleksinin dayanıqlı inkişafı və bu sahədə nəqliyyat dəhlizlərinin rolunun artırılması istiqamətində elmi-tədqiqat işlərinə Azərbaycan Respublikası timsalında ayrıca yer verilməmişdir.

Eyni zamanda, bütövlükdə aqrar sahədə iqtisadi münasibətlərin təkmilləşdirilməsi, istehsal-kooperasiya münasibətlərinin yaradılması, aqrar-sənaye kompleksinin formalaşdırılması və inkişafı, nəqliyyat xidmətlərinin yaxşılaşdırılması, daşıma proseslərinin səmərəliliyinin artırılması və s. istiqamətlərə dair məsələlərə bir sıra yerli və xarici alimlərin əsərlərində rast gəlmək mümkündür. Belə ki, xarici ölkə alimlərindən Л.И.Абалкин, В.А.Богомолов, И.О.Богданов, Н.А.Попов, В.Н.Малыш, В.В.Кузнецов, Г.К.Печагин, А.Г.Будрин, Г.А.Кононовой, Н.Г.Платнева və digərləri öz əsərlərində aqrar sahə, aqrar-sənaye kompleksi və nəqliyyat sektoruna dair müxtəlif məsələləri dərindən araşdırmış, müvafiq nəticələr əldə etmişlər. O cümlədən, yerli alimlərdən Z.Ə.Səmədzadə, A.K.Ələsgərov, A.A.Nadirov, İ.H.Alıyev, B.X.Ataşov, İ.H.İbrahimov, S.V.Salahov, R.Ə.Balayev, M.Hüseynov, Ə.Qurbanova, S.Q.Cümşüdov, Z.S.Məmmdəov, A.M.Əsədov və digər iqtisadçı alimlərimiz öz əsərlərində problemin müxtəlif aspektlərinə geniş yer vermiş, nəzəri və praktiki cəhətdən böyük əhəmiyyətə malik nəticələr əldə etmişlər.

Aqrar-sənaye kompleksinin dayanıqlı inkişafı, bu sahədə nəqliyyat dəhlizlərinin rolunun artırılması, ölkədə ərzaq təminatının təkmilləşdirilməsi regionların sosial-iqtisadi inkişafının mühüm tərkib hissəsi və zəruri şərtlərindən biri kimi, həm də müvafiq normativ-hüquqi sənədlərdən və dövlət proqramlarından irəli gələn bir zərurətdir. Bu isə, bir daha seçilmiş tədqiqat mövzusunun aktuallığını şərtləndirərək, tədqiqatın məqsəd və vəzifələrinin müəyyən edilməsinə tam əsas verir.

**Tədqiqatın məqsəd və vəzifələri:** Tədqiqat işinin başlıca vəzifəsi aqrar-sənaye kompleksinin dayanıqlı inkişafının təmin edilməsi və bu sahədə beynəlxalq nəqliyyat dəhlizlərinin rolunun artırılması istiqamətində elmi cəhətdən əsaslandırılmış təklif və tövsiyələrin işlənib hazırlanmasıdır. Bu məqsədə nail olmaq üçün aşağıdakı vəzifələr qarşıya qoyulmuş və tədqiqat zamanı ardıcıllıqla yerinə yetirilmişdir:

- aqrar-sənaye kompleksinin sosial-iqtisadi mahiyyətinin aydınlaşdırılması və bu sahənin dayanıqlı inkişafının nəzəri əsaslarının tədqiqi;

- bazar münasibətləri şəraitində aqrar-sənaye kompleksinin dayanıqlı inkişaf xüsusiyyətlərinin tədqiq olunması;
- aqrar-sənaye kompleksinin dayanıqlı inkişafında nəqliyyat xidmətlərinin rolunun müəyyənləşdirilməsi;
- Azərbaycanda aqrar-sənaye kompleksinin inkişaf dinamikasının təhlili və qiymətləndirilməsi;
- aqrar-sənaye kompleksinin inkişafında nəqliyyat dəhlizlərindən istifadənin müasir vəziyyətinin müqayisəli təhlili və qiymətləndirilməsi;
- bazar münasibətləri şəraitində aqrar-sənaye məhsullarının dünya bazarına çıxışının sürətləndirilməsi yollarının müəyyən edilməsi;
- aqrar-sənaye kompleksində nəqliyyat xidmətlərinin təkmilləşdirilməsi və bu sahədə beynəlxalq nəqliyyat dəhlizlərindən istifadənin optimallaşdırılması istiqamətlərinin aydınlaşdırılması;
- Azərbaycan Respublikasında aqrar-sənaye kompleksinin dayanıqlı inkişafı və bu sahədə beynəlxalq nəqliyyat dəhlizlərinin rolunun artırılmasına dair elmi cəhətdən əsaslandırılmış təklif və tövsiyələrin işlənib hazırlanması.

**Tədqiqatın obyekti** olaraq aqrar-sənaye kompleksi müəssisələri və daşıma xidmətləri göstərən təsərrüfat subyektləri seçilmişdir.

**Tədqiqatın predmetini** isə aqrar-sənaye kompleksində fəaliyyət göstərən təsərrüfat subyektləri, bu sektora xidmət göstərən nəqliyyat müəssisələri arasında mövcud olan iqtisadi münasibətlər sistemi, bu subyektlərin təsərrüfat fəaliyyətinin təhlili və təkmilləşdirilməsi məsələləri təşkil edir.

**Tədqiqatın nəzəri-metodoloji əsasların**ı yerli və xarici ölkə alimlərinin fundamental tədqiqatlarının nəticələri, iqtisadi nəzəriyyə, dialektikanın prinsipləri, anlayışları, kateqoriyaları, qanunları və bütün bunların iqtisadi tədqiqatlarda tətbiqi xüsusiyyətləri təşkil edir. Tədqiqat zamanı sistem yanaşma, induksiya, deduksiya və mühakimə üsullarından istifadə edilmişdir.

**Tədqiqatın informasiya bazası**nı aqrar sektorda təsərrüfat subyektlərinin fəaliyyətinin təşkili və təkmilləşdirilməsi, o cümlədən nəqliyyat xidmətlərinin səmərəli təşkili ilə əlaqədar qanunlar və digər normativ-hüquqi sənədlər, Azərbaycan Respublikası

Prezidentinin müvafiq fərman və sərəncamları, əlaqədar dövlət qurumlarının məlumatları və statistik hesabatları, eləcə də müəllifin şəxsi müşahidələri təşkil edir.

**Tədqiqatın elmi yenilikləri** aşağıdakılardan ibarətdir:

- aqrar sahəyə dövlət dəstəyinin istehsaldan satışa doğru istiqamətləndirilməsi zəruriliyi əsaslandırılmışdır;
- regionların aqrar istiqamətlər üzrə ixtisaslaşdırılması (pasportlaşdırılması) və dövlət dəstəyinin də üstün sahələrə verilməsi təklif edilmişdir;
- aqrar sahə məhsullarının ixracının sürətləndirilməsi məqsədilə dövlətin bazarda alıcı və satıcı kimi iştirakı əsaslandırılmışdır;
- aqrar sektorun təbii-iqlim şəraitindən asılılığı və müasir kəskin rəqabət şəraiti nəzərə alınaraq aqrar sığortanın inkişaf etdirilməsi zəruriliyi əsaslandırılmış və Əmanətlərin Sığortalanması Fondunun nəzdində, aqrar sahəyə verilən kreditlər üçün, Kredit zəmanəti Fondunun yaradılması təklif edilmişdir;
- aqrar-sənaye məhsullarının dünya bazarına çıxışını sürətləndirmək məqsədilə müvafiq ixtisaslaşmış bankın yaradılması zəruriliyi müəyyən edilmişdir;
- bazar münasibətləri şəraitində aqrar-sənaye kompleksinin dayanıqlı inkişafında, beynəlxalq nəqliyyat dəhlizlərinə çıxış imkanlarının artırılmasında marketinq araşdırmalarının rolu müəyyən edilmişdir;
- aqrar sektora və aqrar-sənaye kompleksinə nəqliyyat xidmətlərinin təkmilləşdirilməsi məqsədilə marketinq-informasiya sistemlərindən istifadə yolları müəyyənləşdirilmiş, bu məqsədlə regionlararası virtual əlaqələrin gücləndirilməsi təklif edilmişdir;

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti** ondan ibarətdir ki, tədqiqat zamanı əldə edilmiş nəticələr, aqrar-sənaye kompleksinin dayanıqlı inkişafının təmin edilməsi, bu sahədə beynəlxalq nəqliyyat dəhlizlərinin rolunun artırılması, nəqliyyat xidmətlərinin operativ və səmərəli təşkili istiqamətində irəli sürülmüş təklif və tövsiyələr müvafiq normativ-hüquqi sənədlərin, proqram və təlimatların hazırlanmasında istifadə edilə bilər.

Eyni zamanda, işdə əldə edilmiş nəticə, hazırlanmış təklif və tövsiyələr ayrı-ayrı ali məktəblərdə uyğun ixtisaslar üzrə kadrların hazırlanmasında, müvafiq tədris proqramlarının tərtibində istifadə edilə bilər.

**İşin aprobasiyası:** Dissertasiya işinin nəticələri və əsas müddəaları, işdə irəli sürülmüş təklif və tövsiyələr "Azərbaycan iqtisadiyyatında keçid dövrünün başa çatması: təhlil və nəticələr. Milli inkişaf modelinin formalaşması problemləri", "Qloballaşma prosesində Qafqaz və Mərkəzi Asiya", "Azərbaycan regionlarının sosial-iqtisadi inkişafı: problemlər, inkişaf meylləri", "Azərbaycanın milli iqtisadiyyatında modernləşmə: nailiyyətlər və perspektivlər", "Системный анализ и прогнозирование экономики" və s. yerli, respublika səviyyəli və beynəlxalq konfranslarda məruzə edilmiş və çap olunmuşdur. Ümumilikdə tədqiqat işi üzrə, 2 ədədi xaricdə olmaqla, 16 elmi məqalə və tezis çap olunmuşdur.

**Tədqiqatın nəticələrinin tətbiqi:** İşdə əldə edilmiş nəticələr, irəli sürülmüş təklif və tövsiyələr müxtəlif universitetlərdə kənd təsərrüfatının iqtisadiyyatı, nəqliyyat xidmətlərinin təşkili, aqrar-sənaye kompleksinin fəaliyyətinin təşkili və s. ixtisaslar üzrə bakalavr kadrlarının hazırlanmasında istifadə edilə bilər.

Tədqiqat zamanı əldə edilmiş nəticə və tövsiyələr **"KUR Transportation" MMC Daşımaçılıq və Logistika şirkətinə** təqdim edilib, müzakirə olunub və tətbiqinin mümkünlüyü barədə **14 dekabr 2015-ci il** tarixli, ID 27/15 saylı müvafiq rəy verilibdir.

**Dissertasiya işinin həcmi və quruluşu**: Tədqiqat işi giriş, üç fəsil, doqquz paraqraf, nəticə və təkliflər, eləcə də istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. İşdə 15 cədvəl, 2 sxemdən istifadə edilmişdir. İş, ümumilikdə 165 kompyuter səhifəsi həcmindədir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin girişində mövzunun aktuallığı, tədqiqatın nəzəri-metodoloji əsasları, onun məqsəd və vəzifələri verilmiş, predmeti və obyekti göstərilmiş, işin elmi yeniliyi sadalanmış, praktiki əhəmiyyəti əsaslandırılmış, eləcə də, tədqiqatın nəticələrinin praktiki əhəmiyyəti izah olunmuşdur.

**"Bazar iqtisadiyyatı şəraitində aqrar-sənaye kompleksinin dayanıqlı inkişafının nəzəri əsasları və səciyyəvi xüsusiyyətləri"** adlanan birinci fəsildə aqrar-sənaye kompleksinin sosial-iqtisadi mahiyyəti izah edilmiş və tarixi inkişaf mərhələləri göstərilmiş, aqrar-sənaye kompleksinin formalaşması və inkişafının nəzəri əsasları tədqiq edilmiş, bazar münasibətləri şəraitində aqrar-sənaye kompleksinin inkişafının səciyyəvi xüsusiyyətləri aydınlaşdırılmışdır. Bu fəsildə həm də aqrar sektorun, aqrar-sənaye kompleksinin inkişafında nəqliyyat xidmətlərinin rolu araşdırılmışdır. Burada, müəllif düzgün olaraq, nəqliyyat xidmətlərini aqrar-sənaye kompleksinin normal fəaliyyətinin və dinamik inkişafının zəruri tərkib hissəsi kimi tədqiq etmişdir.

Son dövrlər Azərbaycanda milli iqtisadiyyatın tarazlı inkişafı və əhalinin maddi-rifah halının yüksəldilməsi istiqamətində mühüm addımlar atılmaqdadır. Bu islahatlar ölkədə bazar iqtisadiyyatının tam bərqərar olmasına təkan verməklə yanaşı, həm də milli iqtisadiyyatın ayrı-ayrı sahələrində müasir tələblərə cavab verən təsərrüfat formalarının yaranmasına və inkişafına təkan verdi. Təbii ki, həyata keçirilən islahatlar aqrar sektora da təsirsiz ötüşə bilməzdi. Bu tədbirlərin nəticəsidir ki, aqrar sahədə nəzərəçarpacaq irəliləyişlər əldə edilmiş və ölkəmizdə genişmiqyaslı aqrar islahatlar aparılmış, bu sahənin daha da inkişaf etdirilməsi üçün müxtəlif dövlət proqramları və digər normativ-hüquqi sənədlər qəbul edilmişdir. Nəticədə, ölkəmizin ayrı-ayrı regionlarında aqrar islahatların sürətləndirilməsinə, kənd təsərrüfatının inkişaf etdirilməsi və çoxşaxəli mülkiyyət formalarının yaradılmasında ciddi irəliləyişlərə nail olunmuşdur.

Aqrar sahənin inkişafına digər sahələrlə müqayisədə daha çox önəm verilməsi, eləcə də, kənd təsərrüfatı və ərzaq məhsulları istehsalının stabilləşdirilməsinə dövlət qayğısının artırılması ölkənin ərzaq və iqtisadi təhlükəsizliyinin təmin edilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Bu sahə həm də digər sahələrlə müqayisədə daha az gəlirli sahə hesab olunur ki, bu da həmin sahəyə dövlət qayğısının artırılması

zəruriliyini əsaslandırır. Nəzərə alsaq ki, insanların normal yaşayışı üçün gündəlik tələbatın əksər hissəsi, məhz aqrar sektorun payına düşür, onda bu sahənin sosial-iqtisadi mahiyyəti aydın olar.

Dünya ölkələri üçün ən mühüm ehtiyatlardan biri də kənd təsərrüfatı yönümlü ehtiyatlardır ki, bu da kənd təsərrüfatının mahiyyətindən irəli gəlir. Ancaq bu məsələdə də qlobal güclərin həyata keçirdikləri kənd təsərrüfatı siyasəti ilə əlaqədar olaraq zəif inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin dünya ərzaq ehtiyatlarından çox az pay aldığını, hətta bəzi ölkələrin aclıq səviyyəsinə endiyini görürük. Bütün bunlar birbaşa aqrar sektorla əlaqədardır, çünki kənd təsərrüfatı bir millətin ərzaq ehtiyacının ödənilməsi üçün ən strateji sahədir.

Ayrı-ayrı ölkələrin inkişaf etmiş, inkişaf etməkdə olan və s. qruplara ayrılması isə, əsasən kənd təsərrüfatının mexanikləşdirilməsi ilə bağlıdır. Belə ki, əvvəllər çox geniş əkin sahələrindən əldə edilən məhsul, hazırda inkişaf edən texnologiyalar sayəsində kiçik əkin sahələrində də istehsal oluna bilər. Həmçinin kənd təsərrüfatı sektorunun mexanikləşdirilməsi nəticəsində keçmişlə müqayisədə daha qısa müddətdə daha çox iş görmək imkanı yaranmışdır. Ona görə ki, aqrar sahənin inkişafına xüsusi diqqət yetirilməsi istənilən ölkədə, o cümlədən Azərbaycanda da, aşağıda qeyd edilən, bir çox problemlərin həllinə öz müsbət təsirini göstərə bilər:

- kənd təsərrüfatı məhsulu strateji məhsuldur və ölkənin hər cür iqtisadi, maliyyə, ərzaq təhlükəsizliyinin təmin olunması;
- keyfiyyətli və ekoloji cəhətdən təmiz ərzaq məhsulları ilə təmin olunma, istehlakçı tələbatının daha dolğun ödənilməsi;
- Azərbaycan əhalisinin 50%-ə yaxın hissəsinin yaşadığı kənd rayonlarının iqtisadi və sosial inkişafı;
- əhalinin maddi rifah halının yüksəlməsi;
- xüsusən regionlarda işsizlik probleminin aradan qaldırılması və məşğulluq səviyyəsinin yüksəldilməsi;
- urbanizasiya və miqrasiya proseslərinin qarşısının alınmasına;
- sənayenin inkişafı üçün xammal bazasının möhkəmləndirilməsi və emal müəssisələrinin təşəkkül tapması;
- ixrac strukturunun müsbətə doğru dəyişməsi.

Bütün bunlarla yanaşı, nəzərə almaq lazımdır ki, ölkənin təbii xammal sahələri, o cümlədən də aqrar sektor üzrə müqayisəli üstünlüklərinin müəyyənləşdirilməsi və bu üstünlüklərdən səmərəli şəkildə istifadə olunması çox vacibdir. Bu da ondan irəli gəlir ki, yenicə müstəqillik qazanmış ölkələr, o cümlədən Azərbaycan uzun müddət qapalı iqtisadi sistemin tərkibində olmaqla təbii iqtisadi proseslərin, o cümlədən BƏB-in obyektiv təsirindən kənarda qalmışdır. Ona görə də ölkədə BƏB-in təsiri altında və malik olduğu müqayisəli üstünlüklər əsasında deyil, keçmiş ittifaqın "Vahid xalq təsərrüfatı" tələbləri əsasında bir inkişaf formalaşmışdır. Məhz bu səbəbdən də Azərbaycanın da bütün sahələr üzrə BƏB-də malik olduğu müqayisəli üstünlüklərin müəyyənləşdirilməsi çox vacibdir.

Digər tərəfdən, məlumdur ki, kənd təsərrüfatının davamlı inkişafı, həm də müvafiq emal sahələrinin inkişafını tələb edir. Bu baxımdan da, qarşıda duran əsas məsələlərdən biri də aqrar-sənaye kompleksinin inkişafıdır. Aqrar-sənaye kompleksləri aqrar və sənaye sahələrinin inteqrasiyası nəticəsində formalaşan ən iri sahələrarası idarəetmə obyektidir. Aqrar və sənaye sahələrinin inteqrasiyasının obyektiv əsasını məhsuldar qüvvələrin yüksək səviyyəsi, ictimai əmək bölgüsünün inkişafı, kənd təsərrüfatı iqtisadiyyatının digər sahələri ilə genişlənən qarşılıqlı münasibətlər təşkil edir. Aqrar-sənaye inteqrasiyası bir tərəfdən ictimai istehsalda ixtisaslaşmanın nəticəsi kimi sahələrin ayrılaraq müstəqil fəaliyyət göstərməsini əks etdirirsə, digər tərəfdən sahələrin qarşılıqlı əlaqəsinin zəruriliyini səciyyələndirir. Bu qayda ilə aqrar-sənaye inteqrasiyası milli təsərrüfatın bir-biri ilə qarşılıqlı əlaqədar olan, lakin müstəqil fəaliyyət göstərən müxtəlif sahələrin dialektik vəhdəti kimi çıxış edir. Məsələn, mineral gübrələr istehsalı sənayesi, mikrobiologiya sənayesi, emal sənayesi və s. sahələr ayrı-ayrı funksiyaları icra edərək müstəqil təsərrüfat sahəsi kimi fəaliyyət göstərir.

Aydındır ki, aqrar-sənaye kompleksini (ASK) təşkil edən subyektlərin əksəriyyəti kənd təsərrüfatının ətrafında qarşılıqlı istehsal iqtisadi əlaqələrə girərək cəmləşir və öz fəaliyyətini bilavasitə kənd təsərrüfatının tələblərinə uyğun formada qurmağa çalışır. Bu əlaqələr bir qayda olaraq birtərəfli deyil, qarşılıqlı xarakterə malikdir və müəyyən nisbət təşkil edir. Kənd təsərrüfatı bu əlaqələrdə aparıcı sahə kimi ASK-nın bütün vəzifələrini özü ilə və bir-biri ilə bağlayır. Bu baxımdan da, kənd təsərrüfatı həm də sənayenin xammala olan ehtiyaclarının ödənilməsində də mühüm rol oynayır. Ona görə də milli

təsərrüfatın bir çox sahələrinin inkişafı kənd təsərrüfatının inkişaf səviyyəsindən asılıdır. Kənd təsərrüfatında istehsal olunan ərzaq məhsulları və onun emal sənayesi məhsulları ölkə əhalisinin istehlak məhsullarına olan tələbatının əsasını təşkil edir.

Kənd təsərrüfatı məhsullarının emalını həyata keçirən aqrar-sənaye kompleksinə kənd təsərrüfatı və onunla bağlı sahələr üçün istehsal vəsaitləri istehsal edən və həmçinin, kənd təsərrüfatına istehsal-texniki xidməti həyata keçirən sənaye sahələri, kənd təsərrüfatının özü, kənd təsərrüfatı məhsulları emalı və istehlakçılara çatdırılması ilə məşğul olan sahələr daxildir.

Aqrar sahənin dayanıqlı inkişafı, həm də sözügedən sahədə mükəmməl sığorta sisteminin formalaşdırılmasını tələb edir ki, bu sahədə də ölkəmizdə müəyyən hüquqi baza yaradılmışdır. Bazar iqtisadiyyatı inkişaf etmiş xarici ölkələrin təcrübələri nəzərə alınmaqla, 18 iyun 2002-ci il tarixdə "Kənd təsərrüfatında sığortanın stimullaşdırılması haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul olunmuşdur. Bu sahədə nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi o halda lazımi səmərə verə bilər və aqrar sahədə sahibkarlıq fəaliyyəti ilə məşğul olanların maliyyə durumlarının yaxşılaşdırılmasına gətirib çıxarar. Kənd təsərrüfatında sığortanın stimullaşdırılması sahəsində aşağıdakı bir sıra vəzifələrin reallaşdırılması məqsədəuyğun olardı:

- sığortasına dövlət tərəfindən yardım edilən əmlak növlərinin, sığorta haqlarının və sığorta haqqının büdcə vəsaiti hesabına ödənilən hissəsinin müəyyənləşdirilməsi;
- sığorta tariflərinin maksimum həddinin müəyyən olunması;
- sığorta müqavilələri üzrə hesablanmış sığorta haqqının bir hissəsinin büdcə vəsaiti hesabına ödənilməsi və s.

Məlumdur ki, qloballaşan dünyada istənilən sahibkarlıq subyekti üçün informasiya və informasiya-kommunikasiya texnologiyalarının əvəzi yoxdur və bu cür xidmətlərin göstərilməsinə beynəlxalq təşkilatlar tərəfindən heç bir məhdudiyyət qoyulmur. Ölkəmizdə isə hətta müvafiq dövlət proqramlarında da informasiya texnologiyalarının tətbiqi əsasında sahibkarların informasiya təminatının yaxşılaşdırılması ilə əlaqədar tədbirlərin həyata keçirilməsi başlıca vəzifə kimi müəyyən edilmişdir. Xüsusilə regional inkişafa dair dövlət proqramında sahibkarların informasiya təminatı sisteminin formalaşdırılmasının başa çatdırılması, sahibkarlar üçün informasiya məcmuələrinin nəşri və informasiya-məsləhət mərkəzləri xidmətlərinin yaradılması nəzərdə tutulurdu.

Bu baxımdan, aqrar-sənaye sahəsində də sahibkarlıq fəaliyyətinin səmərəli təşkilində bazar infrastruktur elementlərinin - məsləhət, satış, reklam, marketinq tədqiqatları xidməti strukturlar və s. yaradılmasının çox böyük əhəmiyyəti vardır. Əslində, bazar infrastrukturlarının sadalanan elementlərini yaratmadan bazarın özünün normal fəaliyyətindən söhbət gedə bilməz. Ümumiyyətlə, aqrar sahədə sahibkarlıq strukturlarının və kənd təsərrüfatı istehsalçılarının fəaliyyətlərinin normal inkişafı səmərəli hüquqi tənzimləmə sisteminin və müvafiq infrastrukturların yaradılması əsasında mümkündür.

Bu baxımdan, milli təsərrüfatın mühüm infrastruktur sahəsi olan nəqliyyat sektorunun təkmilləşdirilməsi aqrar-sənaye komplekslərinin inkişafı üçün də əlverişli şərait yaradır. Aqrar-sənaye sahələrinin inkişafı isə, öz növbəsində, emal sənayesinin inkişafını, regionlarda emal müəssisələrinin yaradılmasını tələb edir. Eyni zamanda, Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizləri üzərində yerləşən ayrı-ayrı regionlarda emal müəssisələrinin yaradılması, paralel olaraq bu müəssisələrin rentabelli işləməsi üçün kənd təsərrüfatı məhsulları istehsalının artırılması məqsədəuyğun olardı. Müşahidələr göstərir ki, məhsul istehsalı artımının emal müəssisələrinin sifarişi əsasında həyata keçirilməsi həm istehsalçıların, həm də emal müəssisələrinin rentabelli fəaliyyətinə ciddi müsbət təsir edə bilər. Eyni zamanda, burada dünya təcrübəsindən irəli gələn bəzi məsələlərin də nəzərə alınması, dəhliz üzərində yerləşən müvafiq regionlarda emal müəssisələrinin yaradılması, kənd təsərrüfatı istehsalçıları üçün ixrac şərtlərinin yumşaldılması, aqrar sektorda istehsalı stimullaşdırmaq məqsədilə müəyyən məhsulların istehsalçılardan səmərəli (yəni maya dəyərindən yuxarı) qiymətlərlə alınması, istehsal prosesinin daxili bazarın və emal müəssisələrinin sifarişi əsasında təşkili məqsədəuyğun olardı.

Tədqiqat işinin II Fəsli "**Azərbaycan Respublikasında aqrar-sənaye kompleksinin inkişaf dinamikasının müqayisəli təhlili və qiymətləndirilməsi**" adlanır. Bu fəsildə aqrar-sənaye kompleksinin inkişaf dinamikası zəngin statistik materiallar əsasında təhlil olunmuş, müvafiq müqayisəli qiymətləndirmələr aparılmışdır. Burada aqrar sektorun inkişafında nəqliyyat dəhlizlərindən istifadə vəziyyəti aydınlaşdırılmış, xüsusilə Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin fəaliyyəti geniş tədqiq olunmuşdur.

Aqrar sənaye kompleksinin texniki və texnoloji cəhətdən təkmilləşdirilməsi inkişafın zəruri şərtlərindən biridir. Belə ki, dövlət mülkiyyətinin özəlləşdirilməsi, aqrar sektorda çoxsaylı əmtəə istehsalçılarının formalaşmasına və məhsul istehsalının həcminin qismən stabilləşdirilməsi ilə nəticələnsə də, hələ bu sahədə müəyyən problemlər qalmaqdadır. Statistik məlumatlardan da göründüyü kimi, kənd təsərrüfatı, ovçuluq və meşəçilik sahələri üzrə əsas fondların həcmi 2000-2015-ci illərdə 2,5 dəfə artsa da, bu müddət ərzində ümumi iqtisadiyyat üzrə əsas istehsal fondlarının cəmi həcmində bu sahənin payı 2000-ci ildəki 14,4 faizdən 2015-ci ildə 6,2 faizə düşmüşdür. Bu isə, ümumi həcmdə sahənin payının, təqribən 2,0 dəfə azalması deməkdir.

**Cədvəl 1.**

**İqtisadiyyatın sahələri üzrə əsas fondlar, ilin sonuna balans dəyəri ilə**

| İllər | Cəmi | o cümlədən | | | | |
|---|---|---|---|---|---|---|
| | | sənaye | kənd təsərrüfatı, ovçuluq və meşəçilik | tikinti | nəqliyyat və rabitə | digər sahələr |
| mln.manat | | | | | | |
| **2000** | 18140 | 5742.0 | 2611.4 | 903,2 | 2478.9 | 6404.1 |
| **2003** | 25412 | 11956.5 | 2743.4 | 977,4 | 2903.9 | 6831.2 |
| **2005** | 33939 | 19236.7 | 2983.3 | 1087.1 | 3656.5 | 6975.7 |
| **2007** | 50183 | 28912.0 | 4122.3 | 1394.9 | 6278.4 | 9475.4 |
| **2008** | 54736 | 30702,6 | 4494,3 | 1733,9 | 5815,3 | 11989,7 |
| **2009** | 61437 | 35093,0 | 4840,4 | 2224,5 | 6652,5 | 12626,2 |
| **2010** | 66659 | 36833,6 | 5099,8 | 2605,2 | 7395,5 | 14725,4 |
| **2011** | 74186 | 41591,1 | 5271,4 | 2911,7 | 8439,8 | 15972,4 |
| **2012** | 82233 | 46273,1 | 5817,1 | 3157,3 | 9554,6 | 17431,1 |
| **2014** | 95451 | 54729,7 | 5852,3 | 3840,1 | 11351,6 | 19677,4 |
| **2015** | 104453 | 59872,8 | 6509,9 | 4308,9 | 12344,3 | 21418,0 |
| **faiz** | | | | | | |
| **2000** | 100 | 31,7 | 14,4 | 5,0 | 13,6 | 35,3 |
| **2003** | 100 | 47,1 | 10,8 | 3,8 | 11,4 | 26,9 |
| **2005** | 100 | 56,7 | 8,8 | 3,2 | 10,8 | 20,5 |
| **2007** | 100 | 57,6 | 8,2 | 2,8 | 12,5 | 18,9 |
| **2008** | 100 | 56,1 | 8,2 | 3,2 | 10,6 | 21,9 |
| **2009** | 100 | 57,1 | 7,9 | 3,6 | 10,8 | 20,6 |
| **2010** | 100 | 55,3 | 7,6 | 3,9 | 11,1 | 22,1 |
| **2011** | 100 | 56,1 | 7,1 | 3,9 | 11,4 | 21,5 |
| **2012** | 100 | 56,3 | 7,1 | 3,8 | 11,6 | 21,2 |
| **2014** | 100 | 57,3 | 6,1 | 4,1 | 11,9 | 20,6 |
| **2015** | 100 | 57,3 | 6,2 | 4,2 | 11,8 | 20,5 |

**Mənbə:** "Azərbaycanın kənd təsərrüfatı" statistik məcmuə, DSK, Bakı, 2016, səh.53;

Konkret olaraq, aqrar-sənaye sahələrinə nəzər saldıqda, müasir tələbata uyğun məhsul istehsal (emal) etməyə qadir emal sənayesi müəssisələri çox azdır. Belə müəssisələr hər bir inzibati rayonda aqrar-sənayenin və aqrar sektorun inkişafı üçün zəruri olsa da, bir-iki iqtisadi rayon (region) istisna olmaqla, digərlərində yoxdur və ya olduqca kiçik və texniki-texnoloji cəhətdən zəif silahlanmış haldadır. O cümlədən, texniki təminat aqrar-sənaye üçün lazımi məhsullar istehsal edən aqrar sektorda da arzu edilən səviyyədə deyildir. Statistik məlumatlardan aydın olur ki, 1000 ha əkinə 12,8 traktor düşür ki, bu da bir traktora 78 ha deməkdir. Əlbəttə, traktorların hər birinin müasir standartlara cavab verən səviyyədə olduğu halda, bu göstərici o qədər də narahatedici deyildir.

Amma nəzərə alsaq ki, texnikanın 50%-ə qədəri keçmiş SSRİ dövründən qalmadır, onda aqrar sektorda texniki təkmilləşdirmənin zəruri olduğunu görərik.

**Cədvəl 2.**

**Kənd təsərrüfatının texnika ilə təminatı**

| | 1990 | 1995 | 2005 | 2008 | 2009 | 2010 | 2012 | 2015 |
|---|---|---|---|---|---|---|---|---|
| 1000 ha əkinə traktor düşür, ədəd | 26,7 | 21,3 | 11,9 | 14,4 | 12,6 | 13,4 | 13,3 | 12,8 |
| Bir traktora düşən əkin, ha | 39 | 47 | 84 | 69 | 79 | 75 | 75 | 78 |
| **Müvafiq bitkilərin əkin sahəsinə kombayn düşür, ədəd** | | | | | | | | |
| Taxılyığan | 7,8 | 7,0 | 1,8 | 2,5 | 1,9 | 2,0 | 1,9 | 1,7 |
| Qarğıdalıyığan | 28,0 | 22,8 | 1,6 | 0,4 | 0,2 | 0,2 | 0,1 | 0,1 |
| Kartofyığan | 1,8 | 0,8 | 0,2 | 0,1 | 0,3 | 0,3 | 0,3 | 0,3 |
| Çuğunduryığan | 2,9 | 3,7 | 5,2 | 1,9 | 1,2 | 1,1 | 1,2 | 2,5 |
| Pambıqyığan | 13,9 | 12,6 | 0,2 | … | … | … | 0,9 | 1,4 |
| **Bir kombayna düşən müvafiq bitki əkinləri, ha** | | | | | | | | |
| Taxılyığan | 128 | 143 | 556 | 404 | 517 | 502 | 526 | 578 |
| Qarğıdalıyığan | 36 | 44 | 622 | 2396 | 4504 | 5978 | 8409 | 11884 |
| Kartofyığan | 567 | 1227 | 6427 | 10173 | 3 396 | 3 290 | 3104 | 3667 |
| Çuğunduryığan | 349 | 270 | 197 | 535 | 852 | 944 | 811 | 402 |
| Pambıqyığan | 72 | 79 | 5122 | … | … | … | 1127 | 713 |
| **100 traktora düşür, ədəd** | | | | | | | | |
| Kotan | 38 | 26 | 20 | 21 | 21 | 21 | 16 | 24 |
| Kultivator | 18 | 14 | 7 | 5 | 5 | 4 | 4 | 3 |
| Toxumsəpən | 22 | 20 | 9 | 9 | 9 | 9 | 9 | 9 |
| Ot biçən | 8 | 6 | 7 | 3 | 4 | 4 | 4 | 6 |

**Mənbə:** "Azərbaycanın kənd təsərrüfatı" statistik məcmuə, DSK, Bakı, 2016, səh.75-76;

Göründüyü kimi, 1990-cı ildə 1000 ha əkin sahəsinə 26,7 traktor düşürdüsə, 2005-ci ildə bu rəqəm 11,9, 2010-cu ildə 13,4-ə, 2015-ci ildə isə 12,8-ə bərabərdir və ya əksinə, 1990-cı ildə bir traktora 39 ha sahə düşürdüsə, 2005-ci ildə bu 84, 2010-cu ildə 75, 2015-ci ildə isə 78 hektara bərabərdir. Ümumiyyətlə, istər kombaynlar, istərsə də digər texnika ilə təminat, bir texnikaya düşən yığım və ya əkin sahəsi həcmi əvvəlki illərə nisbətən daha çoxdur ki, bu da, təbii ki, məhsuldarlığı, məhsulun rəqabət qabiliyyətliliyini və s. aşağı salır. Məsələn, hər 100 traktora 1990-cı ildə 38, 2005-ci ildə 20 kotan düşdüyü halda, 2010-cu ildə bu rəqəm 21-ə, 2015-ci ildə isə 24-ə bərabərdir. Bir traktora düşən əkin sahəsinin 1990-2015-ci illərdə 2 dəfə artdığı bir halda, kotan sayının azalması əkin işlərinin normal aparılmasına mane olan bir göstəricidir. Digər tərəfdən, 2010-cu ilin məlumatlarına görə hər 100 traktora 9 toxumsəpən düşür. Deməli, yalnız 10% texnikadan tam səmərəli istifadə etmək mümkündür. Təbii ki, bu halda həm əkin işlərinin gecikməsi, həm də texnikadan qeyri-səmərəli istifadə meydana çıxır. Bu isə texnika ilə təminatın, eləcə də mövcud texnikadan səmərəli istifadənin tələbata uyğun səviyyədə olmadığını göstərir.

Təbii ki, hər bir sahədə inkişaf tempi cəlb edilmiş investisiya qoyuluşlarından çox asılıdır. O cümlədən, aqrar-sənaye kompleksinin də inkişafı investisiya qoyuluşlarından çox asılıdır. Başqa sözlə desək, əgər tələb olunan qədər maliyyə təminatı yoxdursa, onda inkişaf perspektivlərinin də reallaşdırılması qeyri-mümkündür. Bu baxımdan da, aqrar-sənaye kompleksinə, eləcə də emal sənayesinə cəlb edilən investisiyaların dinamikası ilə tanışlıq məqsədəuyğun olardı.

**Cədvəl 3**

**Sənayedə əsas kapitala yönəldilmiş investisiyalardan istifadənin strukturu (fəaliyyət növləri üzrə), ümumi yekuna nisbətən %-lə**

| | 2005 | 2009 | 2010 | 2012 | 2015 |
|---|---|---|---|---|---|
| **Bütün sənaye** | **100** | **100** | **100** | **100** | **100** |
| Mədənçıxarma sənayesi | 89.3 | 64.8 | 69.0 | 60.4 | 63,9 |
| Emal sənayesi | 2.8 | 11.0 | 11.9 | 15.8 | 14,2 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 7.2 | 14.0 | 9.9 | 9.5 | 12,5 |
| Su təchizatı, tullantıların təmizlənməsi və emalı | 0.7 | 10.3 | 9.2 | 100 | 100 |

**Mənbə:** http://www.azstat.org/statinfo/industry/az/index.shtml

Cədvəldən göründüyü kimi, 2005-2015-ci illərdə sənaye sektoruna yönəldilmiş investisiyaların, orta hesabla, 70,3%-i, yalnız mədənçıxarma sənayesinin payına düşür ki, bunun da 98%-ə yaxın hissəsi xam neft və təbii qaz hasilatına sərf edilir. Emal sənayesinə investisiya qoyuluşları isə, 2015-ci il üçün, ümumi həcmin cəmi 14,2%-i həcmindədir. Emal sənayesinə aid edilən ayrı-ayrı sənaye sahələrində isə, bu pay 0,1-1,04 % arasında dəyişir. Əlbəttə, bu həcmdə investisiya qoyuluşu ilə rəqabət qabiliyyətli emal sahələrindən danışmaq qeyri-mümkündür.

Qeyd edildiyi kimi, tədqiqatın başlıca istiqamətlərindən birini də aqrar-sənaye kompleksinin inkişafında beynəlxalq nəqliyyat dəhlizlərinin rolunun artırılması təşkil edir. Aydındır ki, nəqliyyat həm istehsal prosesinin başlanması, həm də tamamlanmasında mühüm rola malikdir. Belə ki, məhz nəqliyyat vasitəsilə ölkələr, eləcə də ayrı-ayrı regionlar arasında qarşılıqlı əlaqələr artır ki, bu da yekunda konkret sahələrin inkişafına müsbət təsir edir. Azərbaycan Respublikası Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizlərinin əhatəsində yerləşir. Bu dəhlizlər kənd təsərrüfatı məhsullarının ixracı üçün də münbit şərait yaradır. Belə ki, bu dəhlizlər Asiya və Avropada bir neçə dövləti birləşdirir ki, bu da kənd təsərrüfatı məhsullarının həmin ölkələrə daha asan ixracına imkan verir. Nəqliyyat dəhlizləri avtomobil, dəmir yolu, dəniz və s. kimi müxtəlif nəqliyyat növlərini əhatə edir. Ümumilikdə isə, ayrı-ayrı nəqliyyat növlərinin daşımalarda payı aşağıdakı cədvəldə verilmişdir:

**Cədvəl 4**

**Yük daşımalarının nəqliyyat növləri üzrə strukturu, min tonla**

| | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 |
|---|---|---|---|---|---|---|
| **Cəmi** | **196452** | **203586** | **210862** | **217926** | **221991** | **222373** |
| Dəmir yolu | 22349 | 22203 | 23116 | 23127 | 21795 | 17090 |
| Dəniz | 11714 | 12499 | 12371 | 11510 | 9934 | 6626 |
| Hava | 40 | 51 | 82 | 126 | 125 | 129 |
| Boru kəməri | 62458 | 59053 | 57170 | 57941 | 61534 | 60923 |
| Avtomobil | 99891 | 109780 | 118123 | 125222 | 128603 | 137605 |
| **Yük daşımalarının nəqliyyat növləri üzrə strukturu, %-lə** | | | | | | |
| Dəmir yolu | 11,4 | 10,9 | 11,0 | 10,6 | 9,8 | 7,7 |
| Dəniz | 6,0 | 6,1 | 5,9 | 5,3 | 4,5 | 3,0 |
| Hava | 0,02 | 0,02 | 0,04 | 0,06 | 0,06 | 0,06 |
| Boru kəməri | 31,8 | 29,0 | 27,1 | 26,6 | 27,7 | 27,4 |
| Avtomobil | 50,8 | 54,0 | 56,0 | 57,5 | 57,9 | 61,9 |

**Mənbə**: "Azərbaycanın nəqliyyatı", Bakı, DSK, 2016, səh.12-14

Göründüyü kimi, daşımaların strukturunda aparıcı mövqe avtomobil nəqliyyatına məxsusdur. Yüklərin 60 faizindən çoxu, məhz avtomobil nəqliyyatı ilə daşınmışdır. O

cümlədən, kənd təsərrüfatı məhsullarının da daşınmasında aparıcı mövqe avtomobil nəqliyyatına aiddir. Belə ki, araşdırmalar göstərir ki, daşınmış aqrar məhsulların ümumi həcmində avtomobil nəqliyyatı 93,4%, qalan nəqliyyat növləri isə 6,6%-lik paya malikdir. Ona görə də nəqliyyat dəhlizlərinin keçdiyi ərazilərdə emal müəssisələrinin yaradılması və bu məhsulların dəhliz boyunca bazarlara çıxarılması mümkün və səmərəlidir.

Şərq-Qərb nəqliyyat dəhlizinin fəaliyyətindən aydın olur ki, bu dəhliz boyunca daşımalarda da avtomobil nəqliyyatı aparıcı mövqedədir.

**Cədvəl 5.**

**Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizində nəqliyyatın fəalıyyəti (Azərbaycan hissəsində)**

| | 2000 | 2006 | 2008 | 2009 | 2010 | 2012 | 2015 |
|---|---|---|---|---|---|---|---|
| **Yük daşınmışdır, min ton** | 29091 | **48807** | **51371** | **47443** | **51688** | **56869** | **58191** |
| Dəmir yolu | 15200 | 28109 | 25738 | 19247 | 20578 | 21332 | 19890 |
| Dəniz | 5779 | 6780 | 6803 | 8029 | 9370 | 10367 | 9302 |
| Avtomobil | 8112 | 13918 | 18830 | 20167 | 21740 | 25170 | 28999 |

**Mənbə:** "Azərbaycanın nəqliyyatı", Bakı, DSK, 2016, səh.48-49

Dəhliz boyunca 2015-ci ildə daşımaların 49,8%-i avtomobil, 16%-i dəniz, 34,2%-i isə dəmir yolunun payına düşür.

Tədqiqatın tamamlayıcı III Fəsli **"Aqrar-sənaye kompleksinin dayanıqlı inkişafının təmin olunmasında beynəlxalq nəqliyyat dəhlizlərinin rolunun artırılması istiqamətləri"** adlanır. Məlumdur ki, bazar münasibətləri şəraitində hər hansı təsərrüfat subyektinin səmərəli fəaliyyəti bazarın və istehlakçıların tələbat və zövq dəyişikliklərinin öyrənilməsi, subyektin fəaliyyətinin bu dəyişikliklərə uyğunlaşdırılması, cəld manevretmə qabiliyyətinin olması kimi məsələlərdən çox asılıdır. Bütün bunlar isə, yalnız dəqiq və səmərəli marketinq araşdırmaları ilə mümkündür. Ona görə də, bu fəsildə tədqiqatların bir istiqamətini də müasir dövrdə aqrar-sənaye sektorunda marketinq tədqiqatlarının həyata keçirilməsi istiqamətləri və bunun inkişafa təsirinin müəyyənləşdirilməsi təşkil edir. Marketinq tədqiqatları, yalnız istehsal deyil, həm də satışı əhatə etdiyi üçün bu tədqiqatlar nəqliyyat xidmətlərinə də təsirsiz ötüşmür. Bütün bunlar tədqiqat zamanı geniş şəkildə nəzərdən keçirilmişdir. Eyni zamanda, aşağıdakı ümumiləşdirmələr aparılmışdır:

– aqrar sektorda ekvivalent əmtəə mübadiləsini təmin etmək məqsədilə qiymətlərin dövlət tənzimlənməsi;

– aqrar sahədə kooperasiya və inteqrasiya əlaqələrinin tənzimlənməsi;

– kənd təsərrüfatının spesifik xüsusiyyətləri nəzərə alınmaqla onun perspektiv inkişafına imkan verə biləcək maliyyə-kredit sisteminin formalaşdırılmasının başa çatdırılması;

– kənd təsərrüfatı məhsulları istehsalçılarına maddi-texniki resursların əldə olunmasında göstərilən köməkliklərin davam etdirilməsi;

– aqrar sahədə elmi-texniki tərəqqinin nailiyyətlərinin istehsala tətbiqinin stimullaşdırılması;

– məhsulların marketinqi üzrə fəaliyyətdə meydana çıxan çətinliklərin aradan götürülməsi məqsədilə zəruri müdafiə tədbirlərinin işlənib hazırlanması və reallaşdırılması Buraya istehlakçılara informasiya-məsləhət xidmətinin göstərilməsi, yeni

inşa olunan anbarlarda kənd təsərrüfatı məhsullarının saxlanılması şəraitinin yaradılması və s. aid edilə bilər;

– aqrar sahədə infrastruktur elementlərinin inkişafının müdafiə olunması yolu ilə istehsalın səmərəliyinin yüksəldilməsi və s.

Bu fəsildə qloballaşma şəraitində kənd təsərrüfatı məhsullarının dünya bazarına çıxışının sürətləndirilməsi yolları tədqiq olunaraq ixracın stimullaşdırılması yolları təklif edilmişdir. Tədqiqat işində aqrar sığortanın inkişaf etdirilməsi, ixrac üçün müvafiq kreditlərin ayrılması zəruriliyi əsaslandırılmışdır. O cümlədən, ixraca dəstək məqsədilə ixtisaslaşdırılmış bankın yaradılmasının da məqsədəuyğunluğu göstərilir.

Aydındır ki, istər hazır məhsulların lazımi bazarlara çatdırılması, istərsə də məhsuldar istehsal və səmərəli satış baxımından kənd təsərrüfatı və ərzaq məhsulları istehsal edən qurumlar üçün rəqiblər haqqında informasiyaların mövcudluğu xüsusi maraq doğurur. Onların fəaliyyəti haqqında vaxtında və dolğun alınan məlumatlar, təsərrüfat subyektinə strategiya və taktikalarında müvafiq dəyişikliklər etməyə, bazarda öz mövqelərini qorumaq üçün qabaqlayıcı tədbirlər görməyə imkan verir. Müşahidələr göstərir ki, rəqiblər haqqında əsas informasiya mənbələri aşağıdakılardır:

- rəqiblər tərəfindən buraxılan məhsul və xidmətlərin xüsusiyyətlərinin təhlili;
- rəqib qurumların fəaliyyətlərinin illik hesabatları;
- rəqib sahibkarların yığıncaqları və əmtəələrin sərgisi;
- rəqiblərin ticarət vasitəçiləri, reklamları;
- rəqib təsərrüfatların indiki və keçmiş əməkdaşları, dövri nəşrləri, kataloqlar və s.

Bütün bunlarla yanaşı, marketinq tədqiqatlarının gedişi, öz tərkibinə müəyyən ardıcıl hərəkətləri aid edir ki, onları da bir neçə mərhələdə birləşdirmək olar: problemlərin təyini və tədqiqatın məqsədinin formalaşması, mövcud informasiyaların ilkin təhlili; informasiya mənbələrinin seçilməsi, marketinq araşdırmaları planının formalaşdırılması, informasiya toplanışı və emalı, alınmış nəticələr haqqında hesabatların hazırlanması və s. Qeyd edilən bütün mərhələlər təsərrüfatın rentabelli fəaliyyəti üçün xüsusi əhəmiyyətə malikdir. Eyni zamanda, tədqiqatın problemlərinin müəyyən edilməsi, onun ən məsuliyyətli mərhələlərindən biridir. Ona görə ki, tədqiqatın məqsəd və vəzifələrinin dəqiq və konkret seçimi əldə edilən nəticələrin də əhəmiyyətliliyinə hiss olunacaq təsir edir.

Belə araşdırmaların aparılması ilə yük sahiblərinin daşıma subyektlərinə çıxışını asanlaşdırmaq da mümkündür. Belə ki, müvafiq marketinq araşdırmaları əsasında yük sahibləri ilə daşıyıcıların cəmləşdiyi bir virtual baza yaratmaq olar ki, bu da daşımaların daha səmərəli təşkili baxımından əlverişli hesab edilir. Bütün bunlarla yanaşı, qeyd olunduğu kimi, marketinqin başlıca məqsədi bazarı, istehlakçı zövq və tələbatını mükəmməl şəkildə öyrənərək, təsərrüfat subyektinə müvafiq informasiyalar vermək və istehlakçıların lazımi zamanda, operativ şəkildə və maksimum səmərəliliklə tələb olunan əmtəələrlə təmin edilməsidir. Bunun üçün qeyd edilən marketinq-informasiya sistemlərinin yaradılmasına xidmət edən araşdırmaların planlı şəkildə yerinə yetirilməsi məqsədəuyğun hesab edilir.

Tədqiqatın sonunda aşağıdakı **nəticə və təkliflər** əldə edilmişdir:

Qlobal iqtisadi məkana sürətlə inteqrasiya olunan Azərbaycan Respublikasında aqrar-sənaye sektorunun inkişafı, insanların gündəlik tələbatının daha dolğun ödənilməsi üçün zəngin potensial imkanlar mövcuddur. Ölkəmizin beynəlxalq nəqliyyat dəhlizlərinin qovşağında yerləşməsi bu imkanları daha da artırır və sürətli inkişaf üçün əlverişli şərait

yaradır. Mövcud şəraitdən səmərəli yararlanaraq, aqrar-sənayenin daha sürətli inkişaf etdirilməsi, potensial ehtiyatların tam və səmərəli istifadəsinin təmin edilməsi, beləliklə də, aqrar və aqrar-sənaye sahələrinin dayanıqlı inkişafının təmin olunması qarşıda duran başlıca vəzifələrdən biri kimi qəbul edilməlidir.

Digər tərəfdən, aydındır ki, aqrar-sənaye kompleksinin inkişafı, kompleksin əsas tərkib hissəsi olan kənd təsərrüfatından nə dərəcədə asılıdırsa, o qədər də nəqliyyat dəhlizlərindən, daşıma xidmətlərindən asılıdır. Başqa sözlə desək, araşdırmalar da təsdiq edir ki, aqrar sektorun dayanıqlı inkişafı, daşıma xidmətlərinin təşkili və təkmilləşdirilməsi məsələlərinə sistem şəklində yanaşılması daha məqsədəuyğundur.

Aqrar-sənaye kompleksinin dayanıqlı inkişafını təmin etmək, bu sahənin ölkə iqtisadiyyatında rolunu daha da gücləndirmək, mövcud beynəlxalq layihələrin və nəqliyyat dəhlizlərinin yaratdığı imkanlardan daha səmərəli istifadə etmək, bütün bunların nəticəsində aqrar-sənaye sektorunun perspektiv inkişafını təmin etmək məqsədilə bir sıra zəruri tədbirlər işlənib hazırlanmalı və reallaşdırılmalıdır. Bu tədbirlərə aşağıdakıları aid etmək olar:

– aqrar sektorda ekvivalent əmtəə mübadiləsini təmin etməklə qiymətlərin dövlət tənzimlənməsi. İlk baxışdan bazar münasibətləri şəraitində bu tədbir düzgün qarşılanmaya bilər, amma nəzərə alsaq ki, əksər hallarda vasitəçilərin qiymət "siyasəti" külli miqdarda kənd təsərrüfatı məhsullarının sıradan çıxmasına, ayrı-ayrı istehsalçıların iri həcmli zərərinə gətirib çıxarır, onda bu tənzimləmənin zəruri olduğu aydınlaşar. Burada dövlət bir sahibkar kimi də qiymətləri tənzimləyə bilər. Belə ki, dövlət bazarda istehlakçı və istehsalçını təmin (qane) edən qiymətlərdə məhsul təklif etməklə, digər satıcıları da bu qiymətlə ayaqlaşmağa məcbur etmiş olar;

- kənd təsərrüfatı məhsullarının qiymətində daşıma xərclərini azaltmaq, eləcə də istehsalçı ilə daşıma xidməti göstərən tərəflər arasında münasibətləri səmərəli şəkildə tənzimləmək məqsədilə, ayrı-ayrı regionlarda (eləcə də inzibati rayonlarda) müvafiq avtobazaların formalaşdırılması məqsədəuyğun olardı;

- təklif edilən avtobazaların müasir İKT avadanlıqları ilə təmin olunması və marketinq araşdırmalarının nəticəsi kimi, daşıma sifarişlərinin də bu sistemdə qəbul edilməsi, nəqliyyat vasitələrindən daha səmərəli istifadəyə imkan verər. Bu halda həm yükgötürmə qabiliyyətindən maksimum istifadə təmin edilər, həm də boş gedişlər azalar ki, bu da daşıma xərclərinin aşağı salınmasına gətirib çıxara bilər;

– müşahidələr göstərir ki, əksər hallarda kiçik torpaq paylarına malik olan təsərrüfat subyektləri daha çox vaxt və əmək sərf etməklə, daha az məhsul əldə edirlər. Bu da ondan irəli gəlir ki, kiçik həcmli torpaqlar texnikadan lazımi səviyyədə istifadəyə imkan vermir. Ona görə də, aqrar-sənaye sferasında kooperasiya və inteqrasiya əlaqələrinin gücləndirilməsi zəruridir;

- dünya təcrübəsi də sübut edir ki, kənd təsərrüfatı, fərqli bir sahədir və daha liberal yanaşma tələb edir. Ona görə də ölkəmizdə də aqrar sektorun spesifik xüsusiyyətləri nəzərə alınmaqla, onun perspektiv inkişafına təkan verə biləcək maliyyə-kredit sisteminin formalaşdırılması məqsədəuyğun olardı. Müşahidələr göstərir ki, dövlət tərəfindən kənd təsərrüfatına müəyyən yardımlar edilsə də, bu, əsasən istehsalı əhatə edir və mövcud potensialın tam reallaşdırılmasına imkan vermir;

– kənd təsərrüfatı məhsulları istehsalçılarına maddi-texniki resursların əldə olunmasında göstərilən köməkliklərin gücləndirilməsi. Əslində, əlverişli maliyyə-kredit

münasibətlərinin formalaşdırılması, həm də maddi-texniki təminatın da yaxşılaşdırılmasına kömək edə bilər;

– tədqiqatlar da göstərir ki, aqrar-sənaye sektorunun dayanıqlı inkişafı, bu sahədə nəqliyyat xidmətlərinin təkmilləşdirilməsi marketinq araşdırmalarından çox asılıdır. Ona görə də marketinq xidmətlərinə aqrar-sənaye sektorunun dayanıqlı inkişafının mühüm amili kimi yanaşılması zəruridir. Marketinq araşdırmaları bazarı öyrənməklə, məhsulların bazarda irəlilədilməsi zamanı qarşıya çıxan çətinliklərin operativ şəkildə aradan qaldırılması, istehsal edilən məhsulların istehlakçı zövqünə daha da uyğunlaşdırılması istiqamətində də əlverişli hesab edilir;

–bütün sahələrdə olduğu kimi, aqrar-sənaye müəssisələrinin də bazar fəaliyyətinin səmərəliyinin təmin olunması, həmin müəssisələr tərəfindən istehlakçıların tələblərinə və zövqlərinə uyğun məhsul istehsalından birbaşa asılıdır. Hazırda sözügedən müəssisələr tərəfindən istehlakçıların tələblərinin və zövqlərinin öyrənilməsinə kifayət qədər diqqət yetirilməsə də, gələcəkdə gündəlik tələbat məhsulları bazarında rəqabət kəskinləşdikcə və əhali gəlirlərinin səviyyəsi yüksəldikcə müəssisələrin öz fəaliyyətlərini davam etdirmələri istehlakçıların təklif edilən məhsullara qarşı irəli sürdükləri tələbin ödənilmə səviyyəsindən daha çox asılı olacaqdır. Ona görə də marketinq-informasiya sistemlərinə müəssisələrin vacib strukturu kimi yanaşılmalı, bu sistem vasitəsilə istehlakçıların tələbləri müntəzəm olaraq öyrənilməli və müəssisənin fəaliyyəti bazarın tələblərinə uyğunlaşdırılmalıdır;

– aqrar-sənaye kompleksində istehsal-satış fəaliyyətinin marketinq konsepsiyası əsasında təşkili mikro və makro mühit amillərini sistemli şəkildə öyrənməyə, inkişaf baxımından meydana çıxan məhdudiyyətləri və imkanları daha dəqiq təhlil etməyə imkan verir. Təcrübə göstərir ki, istehsal-satış fəaliyyətinin həyata keçirilməsinə belə yanaşma müəssisələrin uzunmüddətli dövrdə istehsal-satış fəaliyyətinin səmərəliyinin yüksəldilməsinə və onların ölkənin ərzaq təhlükəsizliyinin təmin olunmasında rollarının gücləndirilməsinə gətirib çıxara bilər;

- qeyd edildiyi kimi, aqrar-sənaye kompleksinin dayanıqlı inkişafı istehsal fəaliyyətinin səmərəli təşkili ilə yanaşı, satışdan da asılıdır. Bu isə öz növbəsində nəqliyyat xidmətlərinin operativ və səmərəli təşkilini tələb edir. Bütün bunlara nail olmaq üçün, Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri boyunca, uyğun saxlama anbarlarına malik, müvafiq terminalların yaradılması məqsədəuyğun olardı;

Dissertasiya işinin əsas müddəaları, əldə edilmiş nəticələr, əməli xarakterli tövsiyələr **müəllifin dərc olunmuş aşağıdakı elmi əsərlərində** öz əksini tapmışdır:

**1.** ”Dayanıqlı iqtisadi inkişafın təmin edilməsində aqrar-sənaye kompleksinin rolu”. AMEA İqtisadiyyat İnstitutu, “Azərbaycan iqtisadiyyatında keçid dövrünün başa çatması: təhlil və nəticələr. Milli inkişaf modelinin formalaşması problemləri”, Beynəlxalq konfransın materialları, səh. 553-554.

**2.** “Aqrar sektorun sosial-iqtisadi mahiyyəti və inkişaf xüsusiyyətləri”. AMEA İqtisadiyyat İnstitutu, Elmi əsərlər, 2010, № 3, səh. 203-208.

**3.** “Aqrar sektorun inkişafında nəqliyyat dəhlizlərindən istifadə imkanları”. “Nəqliyyat hüququ” elmi-təcrübi, publisistik jurnal, 2010, № 3, səh.62-71.

**4.** “Beynəlxalq nəqliyyat dəhlizlərinin regional inkişafa təsir istiqamətləri”. Qafqaz Universiteti, “Qloballaşma prosesində Qafqaz və Mərkəzi Asiya”, III Beynəlxalq konfrans, səh. 64-67.

**5.** "Aqrar sektorda reallaşdırılan tədbirlər və onun regional aspektləri". "Azərbaycan regionlarının sosial-iqtisadi inkişafı: problemlər, inkişaf meylləri" Respublika elmi-praktiki konfransının materialları, Bakı, 2010, səh.106-107.

**6.** "Regional inkişafda nəqliyyat əlaqələrinin rolu". "İqtisadi artımın intensiv inkişaf problemləri" mövzusunda Respublika elmi-praktiki konfransın materialları, AKU, 2011, səh. 301-305.

**7.** "Beynəlxalq nəqliyyat dəhlizləri və aqrar sektorun inkişafında onların rolu". Azərbaycan Universiteti, İpək Yolu, 2010, № 4, səh.58-63.

**8.** "Regional inkişaf və nəqliyyat xidmətləri". "Dirçəliş-XXI əsr"–158-159/2011, s.336-344.

**9.** "Nəqliyyat xidmətlərinin təkmilləşdirilməsində modernləşmənin rolu". "Azərbaycanın milli iqtisadiyyatında modernləşmə: nailiyyətlər və perspektivlər", Bakı, AMEA İİ, 11.03.2011, səh.89-90;

**10.** "Beynəlxalq nəqliyyat dəhlizlərindən səmərəli istifadə istiqamətləri". Azərbaycan Universiteti, İpək Yolu, 2011, № 4, səh. 73-78;

**11.** "Azərbaycanda tranzit xidmətlərinin təşkili və təkmilləşdirilməsi istiqamətləri". AKU, "Kooperasiya" jurnalı, 2013, №3(30), səh.134-140;

**12.** "Azərbaycan Respublikasının müstəqilliyi illərində nəqliyyat siyasəti". H.Əliyevin anadan olmasının 90 illik yubileyinə həsr olunmuş "Azərbaycanın sosial-iqtisadi inkişafının aktual problemləri" elmi-praktiki konfransın materialları, BBU, 2013, səh.180-186.

**13.** "Aran iqtisadi rayonunun inkişaf perspektivlərinin reallaşmasında nəqliyyat sisteminin rolu". "Dövlətin regional siyasətinin reallaşmasında Aran iqtisadi rayonunun rolu: reallıqlar və perspektiv inkişaf" mövzusunda konfransın materialları, Mingəçevir, 6-7dekabr 2013, s.117-119.

**14.** «Направления влияния международных транспортных коридоров на развитие аграрного сектора в Азербайджане». "Системный Анализ и прогнозирование экономики", Минск, 6-я меж. научная конференция, стр.112-118.

**15.** «Вопросы выхода сельскохозяйственной продукции на мировом рынке в условиях глобализации». Москва, «Перспективы науки», 2012, №1(28), стр.73-78.

**16.** «Особенности формирования рыночных отношений в аграрном секторе». «Социально-экономические и правовые системы: современное видение и подходы». Материалы VII межд. научно-практической конференции, 3 февраля 2012, Омск, стр.77-80.

**Ахмад Юсиф оглу Насиров**

# Повышение роли международных транспортных коридоров в обеспечение устойчивого развития агропромышленного комплекса

Предоставленная диссертационная работа состоит из введения, трех глав, резюме и списка использованной литературы. В введении разъяснены актуальность исследования, уровень, объект и предмет изучения темы, теоретически-методологические основы исследования, научная новизна, а также теоретическое и практическое значение.

В первой главе диссертационной работы под названием «Теоретические основы и характеристики развития агропромышленного комплекса в условиях рыночной экономики» исследованы социально-экономические сущносты и этапы развития аграрного сектора и объяснены особенности развития агропромышленного комплекса.

Исследования во второй главе под названием « Анализ и оценивание современного состояния развития агропромышленного комплекса в Азербайджанской Республике». В этой главе был проведена анализ и оценкадинамики развития агропромышленного комплекса в республике, проанализирована роль транспортных услуг в развитии сельского хозяйства, исследованы состояния использования транспортных корридоров в развитие агропромышленного сектора.

Третья глава исследования называется «Повышение роли международных транспортных коридоров в устойчивых развитиях агропромышленного комплекса». В этой главе исследованы возможности использования маркетинговых исследований, объяснены ускорения доступа к мировым рынкам сельскохозяйственной продукции в условиях глобализации и определены оптимальные организации транспортных услуг.

Диссертационная работа охватывает довольно актуальные вопросы, в результате которого автор приобрел в работе теоретико-практические значение. Одновременно, приобретенные результаты отражаются в 16 научных трудах.

**Ahmad Yusif oglu Nasirov**

## Increasing role of international transport corridors in ensuring the sustainable development of the agro-industrial complex

The presented thesis includes introduction, three chapters, conclusion part, references and attachments. In introduction part, importance and necessity of the topic, expression of the problem and research objectives and also academic achievements are mentioned. Generally, the thesis is adjusted according to the standard criteria and the considered hypotheses are all proved.

In the first chapter of the thesis is named as "Theoretical foundations and characteristics of the development of the agro-industrial complex in the market economy", was investigated the socio-economic nature of the stages and the development of the agrarian sector and explained the special features of the development of the agro-industrial complex.

Research in the second chapter is named as "Analysis and evalution development of the agro-industrial complex in the Republic of Azerbaijan in the contemporary period". This chapter was analyzed and evalution the dynamics of the development of the agro-industrial complex in the republic, analyzed the role of transport services in the development of agriculture, was explored the contemporary period of the use of transport corridors development of the agro-industrial sector.

The third chapter of the study is named as "Increasing role of international transport corridors in sustainable development of agro-industrial complexes". In this chapter was explored the possibility of using marketing research, was explained the acceleration of access to world agricultural markets in the context of globalization and determine the optimal organization of transportation services.

In recent this study have been mentioned problems about the agro-industrial complexes development and the author has suggested the theoretical and practical solutions for the current problems. Results of this study have been publicized in 16 scientific.

**МИНИСТЕРСТВО СЕЛЬСКОГО ХОЗЯЙСТВА
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
АЗЕРБАЙДЖАНСКИЙ НАУЧНО-ИССЛЕДОВАТЕЛЬСКИЙ
ИНСТИТУТ ЭКОНОМИКИ СЕЛЬСКОГО ХОЗЯЙСТВА**

**АХМЕД ЮСИФ ОГЛУ НАСИРОВ**

# Повышение роли международных транспортных коридоров в обеспечение устойчивого развития агропромышленного комплекса

**Специальность: 5312.01 – Отраслевая экономика**

## АВТОРЕФЕРАТ

**диссертации на соискание научной степени
доктора философии по экономике**

**Баку - 2017**